# Multikulturalizm və tolerantlıq Azərbaycan cəmiyyətinin həyat tərzidir



Sivilizasiyalararası anlaşmaya və dialoqa nail olmağın ən mühüm vasitələrindən biri multikulturalizm, tolerantlıq ənənələrinin cəmiyyətdə prioritetlərdən biri kimi qəbuludur. Azərbaycanda fərqli etnik dəyərlərə, mədəniyyətlərə və dinlərə malik olan xalqların əsrlər boyu davam edən mehriban birgəyaşayışı bunu təsdiq edir. Müasir dövrdə Azərbaycanda multikulturalizm və tolerantlıq dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Təsadüfi deyil ki, respublikamızda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini istənilən fəaliyyət sahəsində görmək mümkündür. Bu həm də onu göstərir ki, Azərbaycanda formalaşan multikulturalizm dəyərləri cəmiyyətimizin həyat tərzinə çevrilib.

Bu fikirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin və Biləsuvar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda multikulturalizm gənclərin gözü ilə" mövzusunda Biləsuvardakı Heydər Əliyev Mərkəzində keçirilən konfransda əsas müzakirə mövzuları idi.

Konfrans iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad etdilər. Tədbirdə YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Amil Cavadov, Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev və başqaları mövzu ilə bağlı fikirlərini bölüşdülər. Konfransda 2016-cı ilin Prezident İlham Əliyev tərəfindən ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi və xalqımızın multikultural dəyərlərinin dünyaya nümunə olması diqqətə çatdırıldı. Bildirildi ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Çıxışlarda vurğulandı ki, Prezident İlham Əliyevin Azərbaycan multikulturalizminin elmi əsaslarla öyrənilməsi və dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar dövlət qurumları, hökumət adamları ilə yanaşı, hər bir vətəndaşımızın da üzərinə şərəfli vəzifə qoyur.

Tədbirdə qeyd olundu ki, ölkəmizdə aparılan hüquqi-demokratik islahatlar, vətəndaş cəmiyyəti quruculuğu həyatımızın bütün sahələrini əhatə edir, insanların hüquq və azadlıqlarının, milli-mənəvi dəyərlərinin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verilir. Azərbaycanda qəbul edilən qanunlar və normativ aktlar bütövlükdə əqidə azadlığını təmin edir və yarana biləcək problemləri həll etmək, dövlət ilə dini qurumlar arasındakı münasibətləri qanun çərçivəsində tənzimləmək üçün hüquqi əsas yaradır.

Çıxış edənlər onu da bildirdilər ki, müasir qlobal dünyada bir çox ziddiyyətlər guya din amili ilə əlaqələndirilir. Bəzi dini təşkilatlar dünyanın ayrı-ayrı dini-ideoloji cərəyanlarının təsiri altında olduğunu iddia edirlər. Konfransda nəzərə çatdırılıb ki, respublikamızda milli, ideoloji, informasiya təhlükəsizliyi məsələlərinə ciddi yanaşılır. Tədbirdə o da vurğulanıb ki, hər bir dövlətin əsas funksiyası cəmiyyətdə baş verə biləcək ziddiyyətləri əvvəlcədən görmək və onların qarşısını almaqdır.

Sonda xalqımızın multikulturalizm və tolerantlıq dəyərlərindən bəhs edən filmə baxış keçirildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***